

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 179 (23.821)

*29 sentyabr 2021-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Anadolu Agentliyinə müsahibə verib. Müsahibə sentyabrın 27-də agentliyin saytında yayımlanıb.

Dövlətimizin başçısı müsahibədə 44 günlük Vətən müharibəsində Azərbaycan Zəfərinin, 30 ilə yaxın işğal altında olan torpaqların azad edilməsinin tarixi-siyasi əhəmiyyətindən, Azərbaycan, Ermənistan, Rusiya arasında imzalanan Bəyanat haqqında, Ermənistan rəhbərliyinin Bəyanatın bütün müddəalarını yerinə yetirməli olduğundan bəhs edib. Dövlətimizin başçısı bildirib ki, Ermənistan maraqlı olmalıdır ki, ilk növbədə, Türkiyə ilə əlaqələri normallaşdırsın, eyni zamanda Azərbaycanla münasibətləri normallaşdırsın. Türkiyə və Azərbaycanla öz sərhədlərini müəyyən etsin, delimitasiya, demarkasiya aparılsın.

Prezident İlham Əliyev müsahibəsində işğaldan azad olunmuş ərazilərdə reallaşdırılan böyük layihələrdən, Prezident Rəcəb Təyyib Ərdoğanın əvvəlki illərdə də yüksək platformalardan Azərbaycanın haqq işi haqqında çox geniş məlumatlar verməsindən, bu məsələnin onun xarici siyasət kursunda bir nömrəli məsələ olmasından, İkinci Qarabağ savaşından sonra iki qardaş ölkə arasında münasibətlərin daha da yüksək pilləyə qalxmasından da bəhs edib.

* * *

Sentyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın “France 24” televiziya kanalına müsahibə verib.

## 2021-ci ilin yanvar-avqust aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2021-ci ilin yanvar-avqust aylarında 1 milyard 878 milyon 670 min 800 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz artaraq 4066,4 manata çatmışdır.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 772 milyon 115 min manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2021-ci ilin yanvar-avqust aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 664 milyon 188 min 700 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 0,4 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 638 milyon 141 min 300 manatı və ya 96,1 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2021-ci ilin yanvar-avqust aylarında 338 milyon 53 min 500 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 15333 ton, süd istehsalı 70239 ton olmuşdur. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,8 faiz, süd istehsalı isə 1,7 faiz artmışdır.

* * *

2021-ci ilin yanvar-avqust aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 39 milyon 794 min 600 manat olmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 7,2 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 29 milyon 746 min 200 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,3 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2021-ci ilin yanvar-avqust aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 146 milyon 65 min 300 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 22,3 faiz çoxdur. Verilmiş kreditlərin 16 milyon 734 min 100 manatı və yaxud 11,5 faizi qısamüddətli, 129 milyon 331 min 200 manatı və yaxud 88,5 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir. 1 sentyabr 2021-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 96534-ə çatmışdır ki, bunun da 83316-sı və ya 86,3 faizi aktiv hesablardır. 2021-ci ilin yanvar-avqust aylarında açılmış 29250 bank hesabının 29212-si aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 sentyabr 2021-ci il tarixə 1481-ə çatdırılmışdır.

* * *

2021-ci ilin yanvar-iyul aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 544,1 manata çatdırılmışdır ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz çoxdur.

* * *

1 avqust 2021-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 1696 nəfər artaraq 462 min 439 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Telekommunikasiya şəbəkələrinin payız-qış mövsümünə hazırlığı diqqətdə saxlanılır

***Naxçıvan Muxtar Respublikasında 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyinə payız-qış mövsümündə bütün yaşayış məntəqələrində fasiləsiz rabitə və internet xidmətlərinin göstərilməsinə diqqət yetirilməsi, qəzalı vəziyyətdəki xətt və dirəklərin dəyişdirilməsi, müvafiq mal-material ehtiyatının yaradılması istiqamətində tapşırıqlar verilmişdir.***





Həmin tapşırıqların icrasının təmin edilməsi məqsədilə nazirlikdə tədbirlər planı təsdiq olunmuş və plana uyğun olaraq səlahiyyətli mütəxəssislərin iştirakı ilə muxtar respublikada telekommunikasiya şəbəkələrinin payız-qış mövsümünə hazırlığı ilə bağlı monitorinqlərə başlanılmışdır. Monitorinqlər ilkin olaraq Naxçıvan şəhərində, Şərur, Babək və Kəngərli rayonlarında aparılır.

Monitorinqlər zamanı avtomat telefon stansiyalarında istismar olunan qurğulara, o cümlədən generatorlara və akkumulyatorlara texniki baxış keçirilir, aşkar olunan çatışmazlıqlar qısa müddət ərzində aradan qaldırılır. Yerlərdə xətt təsərrüfatının vəziyyəti təhlil edilir, qəzalı vəziyyətdəki xətt və dirəklər yeniləri ilə əvəz olunur və digər nasazlıqlar aradan qaldırılır.

Avtomat telefon stansiyalarının fasiləsiz fəaliyyəti üçün müvafiq yanacaq ehtiyatının yaradılması da diqqətdə saxlanılır. Əhaliyə kəsintisiz rabitə və internet xidmətlərinin göstərilməsi məqsədilə mal-material ehtiyatının yaradılması, rabitə mütəxəssislərinin mövsümə uyğun geyimlə və zəruri avadanlıqlarla təmin edilməsi istiqamətində işlər davam etdirilir.

Eyni zamanda nazirliyin və tabeliyində olan qurumların inzibati binalarına baxış təşkil olunur, binaların dam örtüklərinin, istilik, su və kanalizasiya xətlərinin, yanğınsöndürmə balonlarının istifadəyə yararlığı yoxlanılır. Həmçinin inzibati binaların mühafizəsi, mühafizəçilərin fəaliyyəti və onların mövsümə uyğun geyimlə təmin olunması da diqqətdə saxlanılan məsələlər sırasındadır. Monitorinqlər zamanı qazanxanalara da texniki baxış keçirilir, qazanxanalarda müvafiq peşə kurslarına cəlb edilmiş və sertifikat almış ocaqçıların işlə təmin olunması nəzərdə tutulur.

Qeyd edək ki, nazirliyin mütəxəssisləri tərəfindən internet verilişində qırılmaların qarşısının alınması məqsədilə rayon və kəndlərdə aparılan monitorinqlər də davam edir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası “TEXNOFEST – 2021”də təmsil olunub

*Türkiyə Texnologiya Komandası Vəqfi və Türkiyə Respublikasının Sənaye və Texnologiya Nazirliyi tərəfindən 21-26 sentyabr tarixlərində aviasiya, kosmos və texnologiya festivalı –“TEXNOFEST – 2021” keçirilib. İstanbul şəhərində 84 ölkənin iştirakı ilə keçirilən “TEXNOFEST – 2021”də ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasından da nümayəndə heyəti iştirak edib. Festivalda iştirak edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov və Əlahiddə Ümumqoşun Ordunun zabiti, general-mayor Rəhim Cəfərov səfər çərçivəsində Türkiyə Respublikasının sənaye və texnologiyalar naziri Mustafa Varank və Türkiyənin “Baykar” şirkətinin texniki direktoru Selçuk Bayraktarla görüşüb, festivalda sərgilənən STEAM layihələri ilə tanış olublar.*



Təhsil nazirinin Mustafa Varankla görüşündə bir çox təşkilatın ortaqlığı ilə təşkil edilən festivalın milli texnologiyanın inkişafında rolu, məktəblilərin texnologiyaya olan marağının artırılmasına verdiyi töhfələr, eləcə də Türkiyənin elm və mühəndislik sahələrində əldə etdiyi uğurların dünyaya nümayiş olunmasındakı əhəmiyyəti barədə müzakirələr aparılıb. Rəhman Məmmədov Türkiyənin sənaye və texnologiyalar nazirinə hədiyyə təqdim edib, muxtar respublikada şagirdlərin informasiya texnologiyaları, eləcə də STEAM sahəsində biliklərə yiyələnmələri üçün yaradılan şərait və görülən işlərlə bağlı məlumat verib.

Türkiyə Respublikasının sənaye və texnologiyalar naziri Mustafa Varank Naxçıvan Muxtar Respublikasında STEAM sahəsində atılan addımların əhəmiyyətini yüksək qiymətləndirib. Qeyd edib ki, 2018-ci ildən başlayaraq minlərlə gəncin xəyallarını reallaşdırmaq üçün müxtəlif fənlər və kateqoriyalar üzrə texnologiya yarışlarından ibarət festivalın 2022-ci ildə Bakı şəhərində keçirilməsi planlaşdırılıb.

Türkiyənin “Baykar” şirkətinin texniki direktoru Selçuk Bayraktarla görüşdə isə Azərbaycan-Türkiyə qardaşlığının texnologiya sahəsində əməkdaşlığın genişləndirilməsinə təkan verdiyi bildirilib, azərbaycanlı məktəblilərin öz layihələri ilə festivalda iştirakı yüksək qiymətləndirilib, Türkiyənin milli təhsil sisteminə uyğunlaşdırılaraq təhsil müəssisələrində tətbiq edilən yeni Təcrübə Təhsil Metodu və bu yeni metod əsasında kadr hazırlığının əhəmiyyəti ilə bağlı müzakirələr aparılıb. Həmçinin festivalın təşkilatçıları ilə beynəlxalq səviyyədə keçirilən texnologiya yarışlarının, eləcə də STEAM layihələrinin yerinə yetirilməsi, beynəlxalq konfranslar, kadr hazırlığı məqsədilə kursların və seminarların təşkili ilə bağlı “Baykar” şirkəti ilə müzakirələr aparıb.

Səfər çərçivəsində şagirdlərin hazırladığı STEAM layihələri ilə tanışlıq olub.

Qeyd edək ki, İstanbul Atatürk Beynəlxalq Hava Limanında baş tutan “Texnofest” 2018-ci ildən etibarən hər il keçirilir. Məqsəd aviasiya, kosmik sənaye, rəqəmsal iqtisadiyyat kimi sahələrin gənclər arasında təbliği, bu sahələrdə sahibkarlığın təşviq edilməsi, festival çərçivəsində təşkil olunan yarışlar vasitəsilə gənc mühəndislərin bilik və bacarıqlarının üzə çıxarılması, eləcə də milli texnologiyaların geniş ictimaiyyətə təqdim olunmasıdır. Kosmik sənaye, hərb, təhsil, tibb, kənd təsərrüfatı, nəqliyyat videooyunları kimi müxtəlif sahə və istiqamətləri, ümumilikdə, yeni texnologiyaları əhatə edən festivalda Azərbaycan milli pavilyonu 11 startap layihəsi ilə təmsil olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

***Ölkəmizdə, eləcə də onun ayrılmaz hissəsi olan muxtar respublikamızda təhsilə göstərilən diqqət onun dinamik inkişafını təmin etməklə yanaşı, həm də gənclərimizin gələcək uğurlarının ən gözəl təminatçısıdır. Yurdumuzun bütün yaşayış məntəqələrində gənclərin inkişafı üçün təhsil sisteminin dövrün tələblərinə uyğun qurulması, formalaşması yüksək təhsil strategiyasının uğurlu inkişafından xəbər verir. Belə ki, lazımi avadanlıqlarla təchiz edilmiş yaraşıqlı məktəb binalarında ən müasir tədris resurslarının, informasiya və kommunikasiya texnologiyalarının istifadəyə verilməsi, o cümlədən ayrı-ayrı sahələr və fənlər üzrə yeni standartların tətbiq olunması ilbəil artan uğurlarla, ölkəmizə müsbət nəticələr qazandırmaqda davam edir. Bu mənada, sözügedən inkişaf və tərəqqidən lazımi səviyyədə bəhrələnən gənclərimiz istər ailəsinə, istər Vətəninə, istərsə də təhsil aldığı məktəbə böyük sevinc, xoşbəxtlik bəxş edir. Eynilə Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin məzunları kimi. Diqqətə çatdıraq ki, artıq iki ildir, ali məktəblərə keçirilən qəbul imtahanlarında əldə edilən keyfiyyət göstəricilərinə görə Naxçıvan Şəhər Təhsil Şöbəsinin tabeliyində olan 17 ümumtəhsil məktəbi sırasında 11 nömrəli tam orta məktəb birincilik qazanıb. Elə biz də həmin təhsil ocağının peşəkar müəllim kollektivi ilə yaxından tanış olmaq, yüksək nəticə əldə etməklə ailələrinə sevinc bəxş edib tələbə adını qazanan gənclərimizdən uğurlarının sirrini öyrənmək üçün sözügedən ünvanın yolunu tutduq.***

***Təhsil millətin gələcəyidir***

## Uğurlu gələcəyə gedən yolun sevincini yaşadan təhsil ocağı



İlk həmsöhbətimiz məktəbin direktoru İlahə Fərəcova oldu. Bəli, bu dünyada bir müəllim üçün şagirdlərinin uğurundan daha şirin, daha əziz nə ola bilər ki, həyatda? İllərinin zəhmətini şagirdinin yüksək nəticəsində görmək kim bilir necə fəxarət dolu ülvi bir hissdir onun üçün.

Müsahibimiz şair Nizami Gəncəvinin “Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz” kəlamını xatırlatmaqla söhbətə başlayaraq deyir ki, həyatda elm öyrənmək insanın gələcəyinə işıqsaçan bir mayak kimidir. Bu həyatda müəllim adını daşımaq isə böyük məsuliyyət, qürur və şərəf işidir. Məktəb mühiti bir-birindən maraqlı hadisələri, istedadlı şagirdlərin qazandırdığı xoşbəxtlikləri ilə biz müəllimlərin həyatında silinməz izlər buraxır. Təbii ki, məktəb həyatı istedadda şagirdləri bir yerdə cəmləyir. Onları gələcəyin ideal gənci kimi formalaşdırmaq, həyatın enişli-yoxuşlu yollarının gətirdiyi çətinliklərdə onlara həmdəm olmaq hər bir müəllimin şərəf borcudur. Düşünürəm ki, bu mənada, 11 nömrəli tam orta məktəbin peşəkar müəllim kollektivinin rolu danılmazdır. Çünki hər bir şagirdi, sözün əsl mənasında, övladın kimi görmək, yeri gələndə onunla müəllim-şagird münasibətində olmaq, yeri gələndə bir dost, sirdaş kimi yanaşmaq böyük səbir və inam tələb edir. Hər kəs etiraf edər ki, müəllim peşəsi necə çətin və məsuliyyətli işdir. Lakin bu şərəfli peşə yolunun ən gözəl nəticələrini şagirdlərimizin qazandığı uğurlarla dadır, çəkdiyimiz zəhmətin şirin bəhrəsini onların timsalında görürük. İnanırsınızmı, şagirdlərimizin uğurlarına şahid olduqca bir müəllim və bir mənəvi valideyn kimi bizlər necə fəxr hissi keçiririk. Bu il də məktəbimizin dörd gənc istedadı öz yüksək nəticələri ilə başda valideynləri olmaqla, məni də sevindirib. Bu mənada, məktəbimiz ötən il də ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında 86 faiz nəticə göstərməklə birincilik qazanmışdı. Elə bu il də 82 faiz nəticə ilə birinci sıradadır. Bu nəticəni qazanmağımız kollektiv əməyin nəticəsidir. Qəbul imtahanlarının nəticələri açıqlandıqda və şagirdlərimin yüksək nəticə qazandığını eşidəndə çox şad oldum. Çünki əziyyətimiz, bir müəllim kimi çəkdiyimiz zəhmət öz layiqli bəhrəsini vermişdi. Bir əsas məsələni də qeyd etmək istərdim ki, gənclərimiz, ən başda da şagirdlərimiz üçün dövlətimizin diqqət və qayğısı olmadan uğur qazanmaqdan söhbət gedə bilməz. Bu gün hər bir kəsə məlumdur ki, muxtar respublikamızda gənclərin elmə, təhsilə, müxtəlif sənət, peşə sahələrinə yiyələnmələri üçün hərtərəfli şərait yaradılır, təhsil müəssisələrində innovativ texnologiyalardan, müasir tədris metodlarından istifadə öz müsbət nəticələrini verir. Qəbul imtahanlarında əldə olunan uğurların yüksələn templə artması da məhz təhsil sahəsində görülən işlərin, bu istiqamətdə reallaşdırılan layihələrin bəhrələridir. Ən xoşbəxt hal da odur ki, bu inkişaf və tərəqqinin gətirdiyi uğurları yalnız şəhərimizin təhsil ocaqlarının simasında yox, o cümlədən diyarımızın ən ucqar kənd məktəblərində də görmək mümkündür. Son olaraq Allahdan arzu edirəm ki, həyatın heç bir çətinliyi şagirdlərimizi yormasın, usandırmasın, düşdükləri çətinliklərin məngənəsindən daim alnıaçıq, üzüağ çıxsınlar. Vətənlərinə, valideynlərinə, onları sevən hər bir kəsə layiqli vətəndaş olsunlar. Biz də onların uğurları ilə daim sevinək, fərəhlənək.



Mövzumuzun ilk qəhrəmanı olan ***Ruhan Fərəcov*** 656 bal toplamaqla həm təhsil aldığı məktəbin birincisi, həm də muxtar respublikamız üzrə 650-700 bal intervalında nəticə göstərən az sayda tələbələrdən biridir. Yaşadığı sevinci bizimlə bölüşən müsahibimiz deyir ki, insan nə olursa-olsun, qarşısına məqsəd qoymadan addım atmamalıdır. Həyat yolunda irəlilədikcə qarşına bir-birindən fərqli çətinliklər çıxır. Həmin çətinliklərin məngənəsindən çıxmaq isə insanın öz əlindədir. Elm yolu da maraqlı və məsuliyyətli olduğu üçün inam və səbir burada həlledici rol oynayır. Öz uğurumdan əldə etdiyim təcrübəyə əsasən demək istəyirəm ki, ali təhsil almağı qarşısına məqsəd qoymuş gənclər daim özlərində oxumaq, yeni-yeni biliklər əldə etmək bacarığını inkişaf etdirməlidirlər. Bu, gündə 5-10 səhifə kitab oxumaqdan tutmuş maraqlı hobbi qazanmağa qədər davam edə bilər. Yəni məşğuliyyətini keyfiyyətli bir sahəyə yönəltdiyin müddətdə itirdiyin zaman da sənə qazanc və uğur gətirir. İkinci bir məsələ odur ki, oxuyub öyrənməyə, qazandığın bilikləri təkrar etməyə lap əvvəldən, mən deyərdim ki, 5-ci sinifdən məqsədə çevirsinlər. Bələd olduqları, sevdikləri sahənin ardınca inamla, səbirlə addımlasınlar və bilsinlər ki, inanmaq bacarmağın yarısı deməkdir. Mən də elm yolunun məsuliyyətini çiyinlərimdə uğurla daşıyaraq yaxşı nəticə əldə etmişəm. Bunun üçün şadam, sevincliyəm. Topladığım nəticəmə uyğun olaraq da Bakı Ali Neft Məktəbinin Kimya mühəndisliyi ixtisasına qəbul olmuşam. Bundan sonra da gələcəyin savadlı bir vətəndaşı olmaq üçün əzmlə çalışacağam.



Bakı Mühəndislik Universitetinin tələbəsi ***Məhəmməd Hacıyev*** də 613 bal nəticə göstərməklə ailəsinin, valideynlərinin fəxrinə çevrilib. İnkişaf və tərəqqi əvəzsiz bir nemətdir, – deyən müsahibimiz qeyd edir ki, lap kiçik yaşlarımdan dəqiq fənlərə və təbiət elmlərinə böyük marağım olduğu üçün olimpiadalarda riyaziyyat və fizika fənləri üzrə iştirak edərək dəfələrlə müxtəlif yerlərin qalibi olmuşam. Elə bu səbəbə görə həm müəllimlərim, həm də valideynlərim qəbul imtahanında məndən yüksək nəticə gözləyirdilər. Topladığım nəticə ətrafımdakıları, müəllimlərimi, ailə üzvlərimi qane etsə də, əslində, daha yüksək nəticə gözləyirdim. Bütün abituriyentlər etiraf edər ki, qəbul imtahanının stresi insana bildiyini də unutdurur. Hətta bəzən elə olur ki, düzgün nəticələri belə, kodlaşdırma prosesində yanlış qeyd edirsən. Bunun üçün imtahanda özünənəzarəti və diqqəti əldən buraxmamaq lazımdır, əks halda, illərin zəhmətini 2 saatın içində puç edə bilərsən. Topladığım nəticəmə uyğun olaraq artıq Bakı Mühəndislik Universitetinin tələbəsi kimi İnformasiya texnologiyaları ixtisası üzrə təhsil alacağam. Hər bir gənc kimi mənim də məqsədim təhsilimi uğurla başa vurduqdan sonra Vətənimin peşəkar, savadlı insanları ilə burada çiyin-çiyinə çalışmaq, gələcəyin istedadlı gənci kimi formalaşmaqdır. Bunun üçün səbirlə, inamla çalışmaq və inanıram ki, bundan sonra da bu yolda səy göstərib məqsədlərimə çatacağam. Hədəfimə çatdığım, valideynlərimin, müəllimlərimin əziyyətini hədər vermədiyim üçün sevincliyəm, xoşbəxtəm. Düşünürəm ki, məqsədin güclü olduğu yerdə insan bütün arzularını reallaşdıra bilər. Təki inamla addımlamağı bacarasan.



Məktəbin digər məzunu, 2004-cü ildə Şahbuz rayonunun Aşağı Qışlaq kəndində zəhmətkeş bir ailədə doğulan ***Fərqanə Mahmudlu*** deyir ki, həyatda uğur əldə etmək bəzilərinin düşündüyü qədər şans, fürsət məsələsi deyil. Mən artıq tələbə adını qazanmış bir gənc kimi düşünürəm ki, qarşısına ali təhsil almağı məqsəd qoyan hər bir şagird elə ibtidai sinfə qədəm qoyduğu andan etibarən dərslərində fəal olmalı, heç bir fənni bir-birindən seçməməlidir. Məktəbdə təhsil aldığı müddətdə əldə etdiyi biliklər, sözsüz ki, universitetə hazırlaşdığı bir vaxtda da onun əlindən tutacaq. Bəzi şagirdlər düşünür ki, qəbul imtahanına üç il qalmış, yəni doqquzuncu sinifdən etibarən oxumağa başlamaq lazımdır. Çox zaman bunun nəticələri heç də arzuedilən kimi olmur. Yalnız cüzi bir nəticə əldə etsən də belə, sən öz xəyallarından xeyli uzaqda dayanmalı olursan. Çünki 11 illik bir proqramı 3 ildə mənimsəmək bir qədər çətin olar. Bu yol nə qədər zəhmət tələb edən, məsuliyyətli olsa da, nəticəsi insanı bir o qədər sevindirir. İnanın ki, zəhmətin, yuxusuz gecələrin, bir sözlə, elm yolunda, xəyalların ardınca etdiyin fədakarlıqları öz məqsədinə çatdığın anda unudursan. Məktəb illərində çəkdiyin əziyyətlər yalnız hafizəndə şirin bir xatirə kimi qalır. Hər dəfə həyat pəncərəsindən məktəb illərindəki qayğısız günlərinə boylananda özünlə qürurlanırsan. Bu yolun inamlı yolçusu kimi mən də 592 bal toplamaqla artıq Naxçıvan Dövlət Universitetinin Dövlət və ictimai münasibətlər ixtisasının tələbəsiyəm. İnanıram ki, gələcəyin savadlı, intellektli gənci kimi Vətənimə layiqli vətəndaş olacağam və bu yolda dayanmadan çalışacağam.



Gələcəyin savadlı psixoloqu olacağam deyən, – müsahibim ***Ramilə Nəzərova*** qeyd edir ki, bu sahəyə olan marağım hələ orta məktəbdə təhsil aldığım dövrlərdə psixologiya mövzusunda oxuduğum kitabların sayəsində yaranmışdı. Elə ixtisas seçimimdə də Naxçıvan Dövlət Universitetinin Psixologiya ixtisasını seçərək tələbə adını qazandım. Bilirik ki, sözügedən peşə özündə ağır məsuliyyəti və çətinliyi birləşdirir. Amma mən bu sahənin çətinliyini dərk edərək addım atmışam. Baxmayaraq ki, imtahanda əldə etdiyim 519 bal nəticəm qarşımda geniş perspektivlər açmışdı. Amma yenə də hər bir kəsin öz xəyalı, amalı var. Həyatda nə olursa-olsun, xəyalının ardınca inamla, səbirlə getməlisən. Heç bir səbəb isə səni yormamalı, bezdirməməlidir. İstər universitet üçün çalışdığın mərhələ olsun, istərsə də ondan sonrakı dövrlərdə qarşılaşdığın uğursuzluqlar səni məyus etdiyi anda gücsüz düşürsən. Lakin düşdüyün yerdən əzmlə, güclü iradə ilə qalxdığın anda xoşbəxtlik dolu gələcək, gözəl günlər səni gözləyir. Bütün gənclərimizə, ən əsas da hələ orta məktəbdə təhsil alan şagirdlərimizə tövsiyəm odur ki, dərslərinə böyük diqqətlə yanaşsınlar. Ən son ana qədər oxusunlar, öyrənsinlər. Bir günlərini belə, yeni nə isə oxumadan, öyrənmədən keçirməsinlər. Təbii ki, elmlə, dərslə yanaşı, istirahət və asudə vaxtın səmərəli təşkili də lazım gəlir. Lakin unutmasınlar ki, irəlidə onları gözləyən xəyallar, valideynlərinin ümid dolu arzuları və müəllimlərinin onlara olan sonsuz inamı dayanıb. Hər şeydən öncə, onları üstün tutsunlar. Bilsinlər ki, sonrakı peşmançılıq heç zaman fayda verməz. Bu çətin yolda bütün şagirdlərə səbir, məsuliyyət, valideynlərinə isə böyük sevinc və xoşbəxtlik arzu edirəm.

*Belə, əziz oxucular. Deyirlər ki, həyat dünya qapısından içəriyə atılan addımla başlayan bir yolçuluqdur. Bu yolda hərənin bir xəyalı, amalı, bir arzusu var. Kimisi həyatını lazımsız işlərə yönəltməklə başa vurur. Kimisi də daim öz üfüqlərini genişləndirmək, dünəni ilə müqayisədə bu gününü daha yaxşı yaşamaq üçün, sözün əsl mənasında, canını dişinə taxır, valideynlərinin, onu sevən hər kəsin başını uca etmək üçün səy göstərir. Elə adlarını çəkdiyimiz gənc fidanlarımız kimi... Bu səmimi söhbətləri dinlədikcə bir daha əmin olursan ki, yurdumuzun işıqlı gələcəyinin, inkişaf və tərəqqisinin parlaq üfüqləri onların həyatında aydın görünməkdədir. Biz də Allahdan arzu edirik ki, həyatın çətinlikləri heç bir zaman onları yormasın, usandırmasın. Hər zaman valideynlərinin sevinc səbəbi, fəxarət mənbəyi olsunlar.*

✍ **Məcid RƏŞADƏTOĞLU**

*"Bu gün səhər saatlarında döyüş zamanı general-mayor Polad Həşimov qəhrəmancasına ön xətdə şəhid olub. Onunla bir yerdə polkovnik İlqar Mirzəyev də şəhid olub". 2020-ci ilin 14 iyulunda bu xəbərlə açmışdıq sabahımızı. Səsinin hər zərrəsində kədər hiss olunan general-leytenant Kərim Vəliyevin Tovuzdakı erməni təxribatı ilə bağlı televiziyadakı çıxışını dinləyərkən xalq olaraq sarsılsaq da, qisas hissi ilə daha da gücləndi əzmimiz. Xalqın illərdir, tarıma çəkilən səbrinin son damlası idi, əslində, bu xəbər...*

"Qığılcımdan alov doğar" deyib, – atalarımız. Elə bu tarixdə qığılcımdan alov alıb ocaq olduq. Elə bir ocaq ki düşmənə od qoyub, onun qorxulu yuxusuna çevrildik. General-mayor Polad Həşimovun şəhid olması hər kəsin qəlbini göynətsə də, səngər generalının əzmi, qorxmazlığı, şücaəti ermənilərin qurduğu istehkam və səngərləri bir-bir yıxıb-keçən Azərbaycan əsgərinə güc verdi, yoluna işıq tutdu. Qəhrəman Polad Həşimov Azərbaycanın hər bir igidinin ürəyində, biləyində, düşməni lərzəyə salan heybətində yenidən qayıtdı döyüş meydanına. Çiyin-çiyinə qəhrəmanlarımızla birgə qalxdı Murov dağına, Suqovuşanı illər sonra birgə azad etdi əsgərləri ilə, Cəbrayılda "Dostluq" bulağından ilk o su içdi, Füzulidə düşmənə ilk o qan uddurdu, Zəngilanda, Qubadlıda Vətənin həsrətinə ilk o son qoydu. Xudayar "Vətən yaxşıdır" nəğməsini oxuyarkən o da həmin igidlərlə birgə öz gözəl yurdunu xəyalından keçirib, Vətən nəğməsinin sehrinə qapılaraq dastana çevrildi. Müqəddəs torpağımızın hər zərrəsini qanı ilə alan qəhrəmanların anbaan yanında oldu ölməz Polad Həşimov. O qarşıladı şəhadət mərtəbəsinə yüksələn qəhrəmanlarımızı cənnətin ən gözəl guşəsində...Vətən müharibəsindən ötən bu bir ildə qəhrəman generalımızı bütün Azərbaycan tanıdı. Elə qəhrəmanımızı yetişdirib xalqımıza bəxş edən ailə üzvlərini də...

Bəyaz saçlı, dağ əzəmətli Səmayə ananı mənim kimi bir çoxları qəhrəmanımızla bağlı hazırlanmış televiziya proqramlarından tanımışdıq. Amma xəyalıma da gətirə bilməzdim ki, bu nurani general anası ilə Naxçıvanda görüşmək nəsibimiz olacaq. Həm də məhz igid oğullarımızın Anım Günündə. Dağ vüqarlı, məğrur duruşlu anamızı 27 sentyabr – Vətən müharibəsi şəhidlərinin Anım Günündə bu diyara gətirən ilk səbəb torpaq uğrunda böyük qəhrəmanlıq göstərərək çoxlu igidlər qurban verən Naxçıvanın şəhid anaları ilə həmrəy olmaq idi. Digər səbəb isə şəhid general-mayor Polad Həşimov şəhidlik zirvəsini fəth edərkən general papağını düşmən tapdağı altında qoymamaq üçün sinəsini düşmən gülləsinə sipər edib rəşadət göstərən, sonralar generalımızın qisasını alıb, özü Vətən uğrunda şəhid olan əsgər İlkin Muradlının məzarını ziyarət etmək idi. Hansı ki bu igid həmyerlimizin doğum günü 27 sentyabr – Anım Gününə təsadüf edir.

Bəli, xalqın generalı Polad Həşimovun əsgəri İlkin Muradlının 27 sentyabr şəhidlik zirvəsinə ucalmasından sonrakı ilk doğum günündə anasını yalnız buraxmaq istəməmişdi Səmayə ana. Axı o şəhid övladının acısını və fəxarətini hamıdan əvvəl yaşamışdı.

Səmayə xanımın anım tədbirindən sonra ilk üz tutduğu məkan isə Əshabi-Kəhf ziyarətgahı oldu. Bu müqəddəs məkan müqəddəs ana ucalığını və ülviyyətini yaşayan şəhid anasına qucaq açdı, onun Vətənə sülh, əmin-amanlıq arzulu dualarını qəbul etdi.

Əshabi-Kəhfdə dəfələrlə olmuşam. Amma bu müqəddəs məkanda belə müqəddəs insanlarla birgə addımlamaq daha böyük təsiredici idi mənim üçün. Sanki bu dağların sirri, möcüzəsi tamam başqa ab-havada idi. Qürur duydum, fərəhləndim, fəxarət hissi keçirdim xalqın generalını yetişdirən Səmayə ana, könüllərdə dastana dönən Xudayarı boya-başa çatdıran Radə ana və qəhrəmanlar diyarımızın igid oğullarını qəhrəmancasına döyüşə yola salan ləyaqətli, qeyrətli Naxçıvanın şəhid anaları ilə həmsöhbət olmaqdan.

Naxçıvanda hər həftənin ikinci günü şəhid anaları qəhrəman övladlarının ruhuna dualar oxumaq üçün Əshabi-Kəhf ziyarətgahına üz tuturlar. Qəhrəman şəhidimiz İlkin Muradlının anası Həcər xanımdan bu xəbəri alan Səmayə ana Radə xanımla birlikdə onlara qoşuldu. Birlikdə bu müqəddəs məkanı ziyarət edib cənnətdəki övladlarının, Qarabağ şəhidlərinin ruhuna dualar oxudu.

Əshabi-Kəhf ziyarətgahından sonra Polad Həşimovun anası başda olmaqla, bütün şəhid analarının üz tutduğu digər müqəddəs məkan isə ərənlərimizin uyuduğu Naxçıvan şəhər qəbiristanlığı oldu. Təkcə general-mayor Polad Həşimovun deyil, Azərbaycan övladlarının ehtiram rəmzinə çevrilən Səmayə ana, nur üzlü şəhidimiz Xudayar Yusifzadənin anası Radə ana, İlkin Muradlının anası Həcər ana və Naxçıvanın digər qeyrətli oğul anaları bir-bir bütün şəhid məzarları üstündə dualar etdilər. Məğrur, başıdik, alnıaçıq Səmayə ana bütün şəhid analarına, möhkəm dayanmağı, dağ qədər vüqarlı olmağı arzu etdi.

Bu görüşü bir fürsət bilib elimizin generalını yetişdirən məğrur anadan qəhrəman övladı ilə xatirələrindən ən unudulmazını öyrənmək istədim. Səmayə ana deyir ki, hələ uşaqlar balaca olanda ataları xəstələndi. O vaxt qızlarım məktəbə gedirdi, Poladla İlham (Polad Həşimovun kiçik qardaşı) isə bağçaya. İşdən gəlib tez-tələsik yemək hazırladım ki, xəstəxanaya yoldaşıma aparım. Axşam olduğuna görə uşaqların hamısını apara bilmirdim. Maşın yox idi, avtobuslar narahat idi. Hər gün Poladı özümlə aparırdım. Bir dəfə mənə dedi ki, "ana, niyə həmişə məni özünlə aparırsan?" Mən də dedim ki, qardaşın balacadı, bacıların da apara bilmərəm, sən yekə kişisən, mənim yanımda olanda mən qorxmuram. Bu söz onu necə tutmuşdusa, hər gün mənimlə gedirdi. Qayıdanda bir az irəlidə qaçırdı, anidən dayanıb soruşurdu ki, "ana, mən belə gedəndə sən qorxmursan ki?" Onun düşüncə tərzini mən heç bir uşaqda görmədim, bundan sonra da dünyaya ikinci Poladın gələcəyinə inanmıram.

## – Qalib Ordu generalının anası olmaq necə bir hissdir?
## – Ömürlük qürur, fərəh, fəxarət...



Qalib Ordu generalının anası olmaq necə bir hissdir? sualını isə belə cavablandırır Səmayə anamız: – Ömürlük qürur, fərəh, fəxarət... Başı göy qübbələrinə ucalan məğrur qadın deyir ki, Polad və onun kimi oğullar bu torpaqları qoruyub öz qanları ilə bu günümüzə ərmağan etdilər. Bu gün də Poladlar, Mübarizlər, Xudayarlar yetişir. Sabah da onların davamçıları var olacaq. Bu xalq var olduqca, onlar da var olacaq. Onun hərbçi kimi mərdliyini, cəsarətini onunla çiyin-çiyinə döyüşən silah yoldaşları, əsgərləri danışır. Bununla belə, qeyd etməliyəm ki, Poladımı əsl qəhrəmana çevirən onun yüksək mənəviyyatı, əxlaq və tərbiyəsi olub. 45 illik həyat yolunda bir dəfə də olsun oğlum mənim başımı aşağı etməyib. 17 yaşından əziyyət görüb, işləyib, çalışıb-vuruşub. Öz zəhməti ilə tutduğu mövqelərə gəlib çatıb. Öz zəhmətinin, öz əziyyətinin bəhrəsini görən insan heç vaxt zərər çəkməz. Bu gün xalqın sevgisini də o özü qazanıb. Hələ bir dəfə olsun heç kimdən eşitməmişəm ki, Poladdan incik olduğunu desin. Oğlum bütün dərdini, sözünü qəlbində saxlayardı. Özü ilə birlikdə çox həqiqətləri də torpağın altına apardı.

Oğlum 1992-ci ildən Azərbaycan Ordusu sıralarına qoşuldu. 28 il vicdanla xalqına, millətinə xidmət etdi. Bu gün onun keçdiyi 45 illik şərəfli həyat yoluna silahdaşları, ömründə bircə dəfə belə oğlumu görməyən, sadəcə, adını eşidən milyonlarla azərbaycanlı qiymət verir. Polad Həşimov şəhid olduğu gündən bir gün belə, evimiz boş qalmır. Onun üçün çox darıxıram, amma onun bu qədər sevildiyini, xatirəsinə bu qədər ehtiramla yanaşıldığını görəndə xalqımla fəxr edirəm... Qəhrəman ananın bu sözlərindən ürəyim dağa döndü. Qarabağ qələbəmizin fərəh və qürurunu ikiqat yaşadım. Var olsun Səmayə ana kimi qəhrəman analarımız ki, xalqımızın dəyanət, yüksək mənəviyyat rəmzinə çevrilib, tarixdə silinməyəcək qəhrəmanlar yetişdirirlər.

Könüllü olaraq odlu-alovlu səngərlərə atılan qəhrəman şəhidimiz Xudayar Yusifzadə yaddaşlarda yoldaşları ilə çiyin-çiyinə vuruşması ilə yanaşı, həm də xoş təbəssümü, məlahətli səsi ilə xalqın yaddaşında yaşayır. Öz ifası ilə bütün xalqın ürəyində əbədi iz buraxan Xudayar Yusifzadənin şəklini daşımaq mənə dərin duyğular yaşatdı. "Xudayarın bacısısınız?" suallarına cavab verə bilməməyim çox kövrəltdi məni, bir sözlə, duyğu selinə qapıldım. Və sadəcə, "kaş" deyə bildim. Xudayarın anası, necə gözəl anasan sən? Özü şəhid anası olduğu halda hər bir şəhid anasının əlindən tutdu, göz yaşlarını sildi, mənəvi dəstəyini heç əsirgəmədi. Bu, Azərbaycan qadınının gücünün təzahürü idi Radə ananın timsalında.

O deyir ki, Xudayar Polad Həşimov şəhid olduğu gün könüllü yazıldı ordu sıralarına. Qəlbini qisas hissi bürüyən igidimiz generalımızın qisasını aldı və mənə bir ömür fəxarət hissi miras buraxdı. Fəxr edirəm ki, belə qeyrətli oğulları var Azərbaycanın.

Şəhid analarının üz tutduğu digər müqəddəs məkan isə yan-yana uyuduqları məzarlığı gülüstana çevirən şəhidlərimiz Qabil Orucəliyev və Bağır Ələkbərovun son mənzilləri oldu. Dağ vüqarlı şəhid anaları məzar üstünə gül dəstələri düzdü, şəhidlərimizin müqəddəs ruhlarına dualar oxundu.

*Tarixboyu Azərbaycan qadınının mətinliyini, ülviliyini təcəssüm etdirən müqəddəs abidəmiz Mömünə xatın da qəhrəman şəhidlərimizin analarını bağrına basdı. Axı onlar Mömünə xatın kimi qəhrəman analarımızın, qeyrətli qadınlarımızın davamçılarıdır. Xalqa qəhrəman nəsillər bəxş edən müqəddəs analarımızın qarşısında daha da vüqarlı göründü gözümə bu əzəmətli şah əsər... Onları seyr edərkən düşündüm ki, qalib ordunun qəhrəman generalından tutmuş cəsur əsgərinədək Vətən uğrunda şəhadətə yüksələnlərin məğrur analarının məhz şanlı mübarizə tarixinə malik, sərkərdələr, generallar yurdu Naxçıvandakı bu həmrəyliyi düşmənə daha bir gözdağıdır: "Övladlarımız döyüş meydanında bir yumruğa döndüyü kimi, biz də burada – düşmənin köhnə, lakin gerçək olmayacaq xülyası Naxçıvanda qarı düşmənə meydan oxuyaraq deyirik: Biz qalibik, yaşayırıq, yaşadırıq! Hələ neçə-neçə Polad iradəli, mübariz ruhlu, qalib xislətli ərənlər yetirəcəyik! Azadlıq rəmzinə çevrilən Mübarizlər, Poladlar, Xudayarlar, Cəbrayıllar kimi ölməz qəhrəmanlarımızın qeyrətli anaları kimi qürurla, iftixarla və başıuca gəzəcəyik bütöv Azərbaycanımızda..."*

**Gülcamal TAHİROVA**

## *"Gənc nəslin tərbiyəsində, maariflənməsində və mətbuat sahəsində inkişafında "Şərq qapısı" qəzetinin rolu"* mövzusunda tədbir keçirilib



*Dünən "Saat Meydanı" turistik istirahət mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun təşkilatçılığı ilə "Şərq qapısı" qəzetinin 100 illiyi münasibətilə "Gənc nəslin tərbiyəsində, maariflənməsində və mətbuat sahəsində inkişafında "Şərq qapısı" qəzetinin rolu" mövzusunda tədbir təşkil edilib.*

Tədbiri giriş sözü ilə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev açaraq muxtar respublikamızda gənclərə göstərilən diqqət və qayğıdan danışıb. Bildirib ki, fond yüksək intellektli və vətənpərvər gənc nəslin yetişdirilməsi istiqamətində müvafiq təşkilatlarla birgə mühüm işlər görür.

Qeyd olunub ki, muxtar respublika rəhbərinin Sərəncamına əsasən 100 illik yubileyi qeyd olunan "Şərq qapısı" qəzeti bir əsr müddətində cəmiyyətin maarifləndirilməsi, eyni zamanda dövlət gənclər siyasətinin təbliği istiqamətində mühüm rol oynamışdır. Bu gün mətbu orqanın fəaliyyətində gənclərə xüsusi yer ayrılması muxtar respublikada onlara göstərilən diqqətin daha bir ifadəsidir. Gənclər Fondu bundan sonra da "Şərq qapısı" qəzeti ilə əməkdaşlığı davam etdirəcək, gənc jurnalistlərin yetişdirilməsi istiqamətində qəzetlə birgə bir çox tədbirlər və layihələr həyata keçirəcək. Gənclər Fondunun icraçı direktoru çıxışının sonunda 100 illik münasibətilə qəzetin kollektivini səmimi qəlbdən təbrik edib, uğurlar arzulayıb.

"Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova çıxışında qeyd edib ki, ulu öndər Heydər Əliyevin dövlət gənclər siyasəti ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da uğurla davam etdirilir. İllər ərzində aparılan uğurlu dövlət gənclər siyasətinin, gənclərin milli ideologiya, milli təfəkkür, dövlətçilik ruhunda tərbiyələndirilməsinin nəticəsi idi ki, Vətən müharibəsində Tarixi Zəfər qazana bildik. Naxçıvanlı hərbçi gənclərimizin bu qələbədə müstəsna rolunun olması həm də muxtar respublikamızda aparılan gənclər siyasətinin bəhrəsi idi.

Mehriban Sultanova Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***"Hər bir gənc yaradılan yüksək şəraitdən və göstərilən dövlət qayğısından bəhrələnərək Vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalı, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və ona göstərilən etimadı doğrultmalıdır"*** fikrini xatırladaraq bildirib ki, bu gün istər Gənclər Fondu, istərsə də muxtar respublika mətbuatı bu ideologiyanı əldə rəhbər tutaraq fəaliyyətini davam etdirir.

Gənclərin maariflənməsində, dünyagörüşünün formalaşmasında mətbuatın əhəmiyyətini vurğulayan baş redaktor "Şərq qapısı" qəzetinin nəşri tarixindən danışaraq bildirib ki, 1921-ci ilin noyabrında Gənclər İttifaqının orqanı olan "Cavanlar həyatı" adlı iki vərəqə şəklində nəşr olunan qəzet nəşrinin müxtəlif dövrlərində gənclərin yeni tərəqqipərvər ruhla, milli düşüncə və təfəkkürlə mətbuatda etdiyi çıxışlar müstəqil Azərbaycanın inkişafı istiqamətində mühüm rol oynamışdır. Bu gün də muxtar respublikada gənclər siyasətini mətbuat vasitəsilə təbliği uğurla davam etdirilir. Gənc jurnalist kadrların mütəxəssis kimi yetişməsi üçün kifayət qədər əlverişli şərait yaradılıb. Gənc jurnalist kadrların "Şərq qapısı"nda uğurlu yaradıcılıq fəaliyyəti üçün müasir şəraitin yaradılması, gənclərin qəzetlə fəal əməkdaşlığı buna bariz nümunədir. Qəzetdəki "Estafet" rubrikası sırf yaradıcılıq bacarığı olan gənclərimizi təşviq etmək üçün yaradılıb. "Şərq qapısı" qəzeti daim Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunub.



Vurğulanıb ki, Ali Məclis Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə Sərəncam imzalaması muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına göstərilən dövlət qayğısı olmaqla həm də gənc jurnalistlərin fəaliyyətinə verilən böyük qiymətdir. Baş redaktor mətbuata göstərdiyi yüksək diqqət və qayğıya görə qəzetin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov çıxışında bildirib ki, muxtar respublikada gənclər bütün sahələrdə ön sıralarda təmsil olunur. Həmçinin kütləvi informasiya vasitələrində gənc qələm sahibləri yetişir. Bütün bunlar muxtar respublikamızda gənclərə göstərilən diqqətin bariz ifadəsi, eyni zamanda ulu öndər Heydər Əliyev ideyalarının diyarımızda uğurla davam etdirilməsinin nəticəsidir. Göstərilən dövlət qayğısı və yaradılan şəraitin nəticəsidir ki, muxtar respublika gəncləri diyarımızın dünyada tanıdılması, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırılması istiqamətində də fəallıq göstərirlər. Onlar mətbuat, televiziya, radio ilə əməkdaşlıq etməklə həm böyük təcrübə əldə edir, həm də müasir Naxçıvanın inkişafına töhfələrini verirlər. Yüzillik yubileyini dövlət səviyyəsində qeyd etdiyimiz "Şərq qapısı" qəzetinin gənc jurnalist əməkdaşları isə yaradıcı fəaliyyəti ilə inkişaf və tərəqqi edən müasir Naxçıvanımızın mətbuat salnaməsinin yaradılmasında xüsusi rola malikdir.

"Şərq qapısı" qəzetinin şöbə müdiri Nail Əsgərov, Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının III kurs tələbəsi, "Şərq qapısı" qəzetinin əməkdaşı Məcid Rəşadətoğlu çıxışlarında böyük tarixi inkişaf yolu qət edən "Şərq qapısı" qəzetinin gənclərin sağlam mənəvi-fiziki tərbiyəsində, vətənpərvərlik və dövlətçilik ruhunda formalaşmasındakı xidmətlərindən bəhs ediblər. Çıxış edənlər muxtar respublikamızda gənclər üçün yaradılan şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Sonra Naxçıvan Televiziyasının hazırladığı "100 ilin "Şərq qapısı" sənədli filmi izlənilib, Gənclər Fondu tərəfindən "Şərq qapısı" qəzetinə təşəkkürnamə, qəzetin fəal gənc əməkdaşlarına isə təşəkkürnamə və pul mükafatları təqdim olunub. "Şərq qapısı" ilə fəal əməkdaşlıq edən gənc jurnalistlər Arif Bayramov və Emil Səmədova qəzetin fəxri fərmanı və hədiyyələr təqdim edilib, digər fəal gənclər də mükafatlandırılıb.

**Güntac ŞAHMƏMMƏDLİ**



## Sizinlə qürur duyduğumuz hər günümüz müstəqil Azərbaycanın var olma günüdür

Sentyabr ayı hər birimiz üçün payızın ilk ayı və bilik ayı kimi tanınır. Hər kəs, xüsusilə məktəbli və tələbələr bu ayın gəlişini səbirsizliklə gözləyir. Çünki qızıl payızın ilk aylarından olan sentyabrda ağacların, otların, çiçəklərin ömründə xəzan çağı olsa da, təhsil illərinə ilk qədəm qoyanlar üçün sentyabr həm də yeni biliklərin başlanğıcı kimi xatırlanır. Bir il bundan əvvəl Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə başlayan Vətən müharibəsi isə sentyabrı bizim üçün həm də Böyük Zəfərə gedən yolun başlanğıcı kimi xatırlamağımıza vəsilə oldu. Məhz 27 sentyabr illərdir, torpaqlarımızı işğalda saxlayan düşmənlərimizə onların anladıqları dildə cavab vermək anının reallığa çevrildiyi gün kimi yazıldı tarixə. Həm də dünya tarixinə. Həmin gün Odlar Yurdunun aslanları səhərin sübh çağında Vətənin müdafiəsinə qalxaraq tariximizə yeni bir tarix yazmağa başladılar. Bundan sonra hər gün, hər saat cəbhədən müjdəli xəbərlər almağa başladıq. Bir an belə, durmadan irəliyə doğru hərəkət edirdi Vətənimin məğrur igidləri. Qəhrəman oğullarımız cəbhədə düşmənə əsl savaş dərsi keçirdi. İgidlərimiz bununla həm də dünyaya haqq, ədalət, vicdan dərsi verirdi. Dövlət-xalq-ordu birliyindən doğan "Dəmir yumruq"la düşmən hər gün darmadağın edilirdi. Hər bir qarış torpağımız işğaldan azad olduqca xarıbülbülün ətri daha yaxından duyulurdu ana yurdumuzda. Gecənin zülmətini azadlığın günəşi addım-addım qovalayaraq cənnətin gözəl qoxusunu doldururdu dünyamıza. Analar bir gözü ilə şəhid balalarını ağlayır, bir gözü ilə Vətənin azadlığına hədsiz sevinirdi. Vətən oğullarının çəkdiyi nərə nəinki düşmənin bağrını yarırdı, həm də yeri-göyü lərzəyə gətirirdi. Sanki Yaradan öz ordusunu yerə endirmişdi. Dünyanın gözü Qarabağda gedən savaş dər-



*Şəhid Araz Məmmədov*
*rəssam: Həmzə Sadiqov*

sində idi. Bu dərs sinif otaqlarında keçilən qırx beş dəqiqəlik tarix fənninə 44 günlük Vətən müharibəsi olaraq düşdü.

Artıq sentyabr ayı yaddaşımıza təkcə bilik ayı deyil, həm də barıt qoxulu ay olaraq yazıldı. Çünki torpaqlarımızın azadlığının başladığı tarix də, Vətən üçün canını qurban verən oğullarımızın ayrılığının hüz-



*Şəhid Firuz Qureşli*
*rəssam: Telman Abdinov*

nü də, onlar üçün axıdılan göz yaşları da sentyabrdan başlayır. Kədərlənsək də, qürurlanmaq üçün hər şey var bu ayda: Vətənin səmasında azadlıq göyərçininə dönüb qanad çalaraq yüksəklərə ucalan şəhidlərimizin sevinən ruhu da, onları anan doğmalarımızın hüznlü, amma qürurlu baxışları da, birlik



*Şəhid İbrahim Vəlizadə*
*rəssam: Həbibə Allahverdiyeva*

və bərabərliyimizin təcəssümü də. Artıq qürurumuzun simvoluna çevrilən şəhidlərimizin anım günü də bu aydadır. Sizsiz yaşanan hər günümüz müstəqil Azərbaycanın var olma günüdür. Biz sizi hər zaman böyük ehtiram, dərin hörmət və qürurla anacağıq! Azad Vətən göylərində Qələbə müjdəsilə rahatlıq tapan ruhunuz şad olsun, əziz şəhidlər!

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin***
***Jurnalistika ixtisası üzrə***
***III kurs tələbəsi***

---

***2021-ci il "Nizami Gəncəvi ili"dir***

## Dahi Nizaminin əsərləri yüzilliklər öncə yazılsa da, bu gün də sevilə-sevilə oxunmaqdadır



Salam olsun ruhuna, Azərbaycanın ölməz şairi Nizami Gəncəvi! Salam olsun o müqəddəs ruhuna ki özündən sonra qoyub getdiyin iz heç bir zaman silinməyəcək. Dahi Nizami, ruhun xəbər gətirmişdir sənə 2021-ci ilin "Nizami Gəncəvi ili" elan olunduğundan. Bununla bağlı imzalanmış Sərəncamda deyilir: ***"Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəvi həyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır".***

Nizami Gəncəvi yaradıcılığının əsas süjet xətlərindən birini zəhmət, sənətkarlıq, ustalıq, yaradıcılıq təşkil edir. Şair bütün əsərlərində zəhməti və əməkçi insanların gördüyü hər bir işi alqışlamışdır:

*İnsan yem dalınca qaçmasın gərək,*
*Quşdan ayıq olsun, zirəkdən-zirək.*
*Çalış zəhmətinlə xalqının işinə yara,*
*Geysin əməlinlə dünya zər-xara.*

Azərbaycanın görkəmli şairi Səməd Vurğun deyirdi: "Nizaminin əsərlərində zəhmət adamlarından hörmət və məhəbbət hissi ilə danışılır. Onun əsərlərində biz bir çox zəhmət adamlarının – kərpickəsənlərin, əkinçilərin, bənnaların, çobanların, bağbanların parlaq surətlərinə rast gəlirik". Mütəfəkkir şairin hər bir əsərini oxuduqca insan daha da zənginləşir, mənəvi qida alıb ruhu sakitlik tapır. Məhz belə əsərlərdən biri də "Sirlər xəzinəsi" poemasındakı "Kərpickəsən kişinin dastanı" hekayəsidir.

Məlumdur ki, böyüməkdə olan nəslin tərbiyəsində əməyə məhəbbət, əməksevərliyin aşılanması mühüm önəm daşıyır. Nə xoş bizə ki bu hekayəni mütaliə etdikcə ibrətamiz nəsihətlər əldə edir, gələcəyimiz olan gəncliyə əməyi, peşəyə olan sevgi hissini aşılaya bilirik. Şam şəhərində yaşayan, kərpic kəsmək kimi ağır zəhmətlə məşğul olan bir qoca kişinin timsalında bugünkü gəncliyimiz əməksevər böyüyə bilir. Qoca tərini silə-silə, kərpicini kəsərək halal zəhməti ilə çörək pulunu qazanır. Elə bu zaman bir cavan oğlanın: – Bu nə işdir görürsən, ay qoca, yalnız qullar, kölələr belə zillətə dözər… Qalx ayağa torpağa bu qədər külüng vurma, bir tikə çörəyi heç kəs səndən əsirgəməz, – deməsi yaşlı kişini qəzəbləndirir, cavan oğlanın dediklərinin qarşısında belə cavab verir:

*Cavansan, belə cahillik etmə,*
*Əl çək acı sözlərdən, mənə ağıl öyrətmə,*
*Mən bir kəsə deyiləm xəzinədən ötrü möhtac,*
*Əlimin zəhmətilə toxdur gözüm, deyil ac,*
*Onunçün öyrətdim ki, əlimi bu sənətə,*
*Bir gün sənə əl açıb düşməyim xəcalətə.*
*Məni bu ruzi üçün günahkar sayma, bəsdir,*
*Düşünsən bilərsən ki, dediklərin əbəsdir.*

Adətən, dünyagörmüş, təcrübəli qocalar, gənclərə nəsihət verər, onları səhv işlərdən çəkindirər. Əksinə, bu hekayədə cavan oğlan qocaya ağıl vermək, yol göstərmək fikrinə düşür. O, qocaya məsləhət görür ki, yaşı ötmüşdür, daha işləməsin, heç kəs ondan bir parça çörəyi əsirgəməz. Lakin qocanın haqlı və ədalətli sözləri gənc oğlanı narahat edir, tutduğu işdən peşman olur. Bu, əlbəttə, şairin özünün ideyasıdır ki, insan öz zəhməti ilə ucalmalı və onun nəticəsində yaşayışını təmin edib, özgələrdən asılı olmamalıdır. Öz halal əməyi ilə dolanışığını təmin etməyi bacarmalıdır. Heç kəsə boyun əyməmək, əməksevər olmaq kimi müsbət keyfiyyətlər aşılanır əsər vasitəsilə. Bununla da zəhmətkeş qoca hələ həyatın sərt üzünü görməmiş gəncə əməksevərlik, halallıq dərsi verir. Dahi Nizaminin qocanın dili ilə dediyi sözlərdən göründüyü kimi, şair əməyə insana sərbəstlik verən, onu başqaları qarşısında boyun əyib, əl açmaqdan xilas edən bir vasitə kimi baxır. Kərpickəsən kişi isə yaşadığı çətinliklərə baxmayaraq, həyatda heç vaxt məğlub olmur. Əksinə, daha məğrur dayanır dünya pəncərəsi önündə, qürurundan dönmür. Görkəmli ustadımız Nizami bu əsəri ilə kərpic kəsməklə gündəlik gəlirini əldə etməyin utancverici bir hiss olmadığını dilə gətirir. Bir qarın çörək üçün heç kəsə boyun əyməməyi təlqin edir. Dahi Nizami tüfeyli həyat sürən insanları pisləyir, onların cəmiyyətə heç bir xeyir gətirmədiyini bildirir.

Bu gün ümumtəhsil məktəblərinin V siniflərində təhsil alan şagirdlər bu hekayəni oxuyarkən öz əməyinin şirin bəhrəsindən mənəvi qida alan qoca ilə halal zəhməti qiymətləndirməyən miskin bir cavanı gözləri önündə canlandırırlar. Kərpickəsən qoca ən səciyyəvi əməkçi obrazı olduğundan şagirdlərdə əməyə sevgi yaratmaq üçün əsl nümunədir. Şagirdlər hekayəni oxuduqda bu nəticəyə gəlir ki, zəhmət çəkən, əmək sərf edən, alnının təri ilə çörəkpulu qazanan insanlar hər kəsin sevimlisinə çevrilir.

*Bir sözlə, Nizaminin əsərləri yüksək insani görüşləri, mənəvi ucalığı tərənnüm edən möhtəşəm sənət abidələridir. Şair bəşəriyyətin rifahını əmək və zəhmətsiz təsəvvür etmir. Nizami söz xəzinəmizdə ən uca zirvədə dayanaraq, təfəkkürün vəhdətindən irəli gələn əsərlərinin qalibiyyət bayrağını bütün kainat üzərində dalğalandırır. O əsərlər ki heç bir zaman şairin unudulmasına yol verilmir. Nizaminin dediyi kimi: "Yüz illər keçsə də, sorsanız o hardadı, misralarım deyəcək o burdadı". Dahi söz ustası ədəbiyyatımızda yeni parlaq səhifə açmışdır ki, məhz həmin əsərlər bu gün də insanların kamilləşməsinə xidmətdir. Korifey sənətkar öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmışdır. Bu məktəb 100 illiklər keçsə belə, yenə yaşayacaq. Qüdrətli söz sahibinin oxuduğumuz hər bir əsərindən aldığımız nurun, aldığımız xoşbəxtliyin, ən əsası aldığımız mənəvi qidamızın heç bir zaman əskilməməsi ümidi ilə…*

**Nuray ƏSGƏROVA**

---


### Azərbaycan Respublikası Təhsil Nazirliyi

***Naxçıvan Müəllimlər İnstitutu kafedralarda boş olan aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə elan edir:***

***I. Kafedra müdiri vəzifəsi:***

-Ali riyaziyyat və informatika kafedrasının müdiri

***II. Kafedralardakı digər vəzifələr:***

*1. Azərbaycan dili və ədəbiyyat kafedrası üzrə:*
-Dosent – 1 yer (1 ştat)

*2. Pedaqogika və psixologiya kafedrası üzrə:*
-Dosent – 1 yer (0,5 ştat)
-Baş müəllim – 1 yer (1 ştat)
-Müəllim – 2 yer (hər biri 0,5 ştat)

*3. İncəsənət kafedrası üzrə:*
-Baş müəllim – 1 yer (0,5 ştat)
-Müəllim – 1 yer (1 ştat)
-Müəllim – 1 yer (0,5 ştat)

*4. Ali riyaziyyat və informatika kafedrası üzrə:*
-Baş müəllim – 1 yer ( 1 ştat)
-Baş müəllim – 1 yer (0,5 ştat)
-Müəllim – 1 yer (1 ştat)

*5. Riyaziyyat və tədrisi metodikası kafedrası üzrə:*
-Dosent – 1 yer (0,5 ştat)
-Müəllim – 1 yer (1 ştat)

*6. Humanitar və ictimai fənlər kafedrası üzrə:*
-Müəllim – 2 yer (hər biri 1 ştat)

*7. Xarici dillər və tədrisi metodikası kafedrası üzrə:*
-Müəllim – 1 yer (0,5 ştat)

*8. Ümumi fənlər kafedrası üzrə:*
-Müəllim – 1 yer (1 ştat)

Kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tələblərinə cavab verən şəxslər iştirak edə bilərlər.

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə uyğun şəkildə rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri,***
***Heydər Əliyev prospekti 2,***
***Naxçıvan Müəllimlər İnstitutu***
***Rektorluq***



### İtmişdir

Babək rayonu, Şəkərabad kəndində yerləşən əmlak kompleksi kimi müəssisənin MH-0014259 seriya nömrəli çıxarışı və 103013002022-12301 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, C.Məmmədquluzadə küçəsi, 34/3 ünvanında yerləşən qeyri-yaşayış binasının MH-0018640 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Yusifov Mübariz Mənsimalı oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Nuriyev Əsgər Həşim oğlunun adına olan avtomobilin 75AF347 nömrəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Nəcməddin Naxçıvani küçəsi, döngə 8, ev 10-da yaşamış İsmayılov Kamil Əli oğlunun adına olan 1669 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkəndində yaşamış İmranov Rəşid İmran oğlunun adına 273A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xələc kənd sakini Əliyev Əli Məhəmməd oğlunun adına olan JN-181 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Yengicə kənd sakini Mirzəyev Eldar Lumu oğlunun adına olan A-384 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Oğuzkənd sakini Mahmudov Əliyar Cəbrayıl oğlunun adına verilmiş 102013003888 reyestr nömrəli plan-ölçü və çıxarış itdiyindən etibarsız sayılır.



**ŞƏRQ *qapısı***

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan: *AZ-7000,***
***Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***

***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail: *serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:* Səbuhi Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 805**